**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

№ 11 "21" yanvar 2015-ci il

**ASAN könüllülərinin Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında təcrübə keçməsinin təmin edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli, 685 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılmışdır. ASAN xidmət mərkəzlərində əhaliyə ayrı-ayrı mərkəzi dövlət orqanları tərəfindən göstərilən xidmətlərin eyni məkanda təklif edilməsi vətəndaşların bu xidmətlərdən istifadə imkanlarının artırılması və ortaya çıxa biləcək neqativ halların qarşısının alınmasına şərait yaratmışdır.

"ASAN xidmət"də fəaliyyət göstərmiş 1000-dən çox könüllü arasında sıx əlaqələrin yaradılması zərurətini anlayaraq bir qrup könüllü gənc tərəfindən 19 dekabr 2013-cü ildə yaradımış ASAN Könüllüləri Gənclər Təşkilatı (AKGT) üzvləri könüllülük prinsipi əsasında "ASAN xidmət" mərkəzlərinin fəaliyyətində yaxından iştirak edirlər. Gənclərin könüllülük fəaliyyətinə marağının artması bu fəaliyyətin "ASAN xidmət" mərkəzləri ilə yanaşı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin digər sahələrində də tətbiqinə yol açmışdır. Könüllülər Agentliyin Sosial innovasiyalar və strateji araşdırmalar şöbəsi, Nəzarət və qiymətləndirmə şöbəsinə xidmətə cəlb olunmuş və bununla da könüllülər bir çox sahələr üzrə yeni təcrübələrə yiyələnmişlər.

16 dekabr 2014-cü il tarixində Sabirabad şəhərində ASAN Könüllülərinin I Ümumrespublika Forumu keçirilmişdir. Forumda çıxış edən Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyev ASAN Könüllülərinin fəaliyyətini yüksək qiymətləndirmiş və gələcəkdə onların xidmətlərindən daha geniş sahələrdə istifadə edilməsinin zəruriliyini qeyd etmişdir. Bundan başqa cari ildə ASAN könüllülərinin başqa dövlət hakimiyyəti orqanlarında da təcrübə keçmələri və yeni-yeni biliklərə yiyələnmələri qarşıya məqsəd qoyulmuşdur. Bir qrup ASAN könüllülərinin Binəqədi Rayon İcra Hakimiyyətində də təcrübə keçmələri məqsədəuyğun hesab edilərək bu barədə Rayon İcra Hakimiyyətinə müraciət edilmişdir. Qeyd olunanlara və "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 6.8-ci bəndinə əsaslanaraq

**Qərara alıram**

1. Bu sərəncama əlavə olunmuş siyahıda adları göstərilən ASAN könüllülərinin 21 yanvar 2015-ci il tarixindən Binəqədi Rayon İcra Hakimiyyətində 2 ay müddətində təcrübə keçməsi təmin edilsin.
2. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya tapşırılsın ki, ASAN könüllülərinin təcrübə keçmələri üçün Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə və sektorları üzrə bölgüsünü təmin etsin.
3. Aparatın şöbə və sektor müdirlərinə tapşırılsın ki, ASAN könüllülərinin təcrübə müddəti ərzində fəaliyyətinin sərəncama 2 nömrəli əlavəyə uyğun olaraq həftəlik qiymətləndirilməsinin aparılmasını təmin etsinlər.
4. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya həvalə olunsun.

**Xaləddin İsgəndərov**

**№13**

**ƏSLİ İLƏ DÜZDÜR.**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** — **Elnur İmanov**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN